Xalq qəzeti .- 2025.- 23 fevral (№ 41).- S.9.

**Azərbaycanın zəfərini bizlərə yaşadan cəsur hərbçilərimiz haqda nə qədər yazsaq, onların misilsiz xidmətlərinin yanında yenə də azdır, yetərsizdir. Hər şəhid valideynləri ilə görüşəndə, həmsöhbət olanda, onların təskinlik üçün, ruhlarını isidəcək söz axtarır, aciz qalıram. Amma şəhid ailələrinin də, elə bizim hamımızın da bir təsəllisi var ki, bu qəhrəmanlar canlarını Vətən yolunda qurban veriblər və Böyük Qələbə qazanmışıq. Elə Yevlax rayonunun igid övladları və 1-2 gün fərqlə fevral doğumlu olan şəhidlər – Nicat Nağıyev, Xəqani Cəmilli, Veyis İsmayılov və Cavid Kərimov haqqında yazılarıma da bu hisslərlə başladım...**

# Şəhidlik ölmək deyil!

**Raisə ana deyir ki, hər gün arzulayıram, qapını açım, 25 yaşlı çinar boylu oğlum içəri girsin, “Ana” deyib, boynuma sarılsın. Bu sözlərin qarşısında hansı sözü tapım? Ona necə təskinlik verim?**



Nicat Azad oğlu Nağıyevin atası Vətən müharibəsindən 1 il əvvəl yol qəzasında dünyasını dəyişmişdi, ana 2 oğul övladıyla qalmışdı. Ailənin göz yaşı hələ qurumamışdı. Müharibə başlananda isə Nicat könüllü cəbhəyə qoşulmaq istədi, lakin qardaşı Rəşad xəstə olduğuna görə onu geri qaytardılar. Amma o, Vətəni ailəsindən daha üstün tutdu və təkidlə döyüşlərə atıldı.

Nicat 1995-ci il fevralın 21-də Yevlax rayonunun Əcəmi kəndində anadan olub. Təhsilini Əcəmi kənd orta məkəbində alıb. 2013-cü ildə hərbi xidmətə çağırılıb. Füzuli rayonundakı “N” hərbi hissəsində xidmətdə ikən baş atıcılıq kursunu tərifnamə ilə başa vurduqdan üç ay sonra Cəbrayılın Cocuq Mərcanlı kəndində hərbi xidmətinə davam edib. Hərbi xidmətdən qayıdan Nicat kənddə təsərrüfat işləri ilə məşğul olub.

2020-ci il sentyabrın 21-də qismən səfərbərliyə qoşulan Nicat tez-tez ailəsi ilə əlaqə saxlasa da, anasına bildirmirdi yerini. Böyük ruh yüksəkliyi ilə deyirdi ki, məndən narahat olmayın, yaxşıyam, hər şey çox gözəl olacaq, tezliklə torpaqlarımızı düşmənlərdən təmizləyəcəyik. Ali Baş Komandanın dediyi kimi: onları “iti qovan kimi qovacağıq”, inşallah!

Nicat ilk günlərdə Murovdağda, daha sonra isə Tərtər və Talış istiqamətlərində gedən qızğın döyüşlərdə vuruşub. Döyüş yoldaşları danışırlar ki, Nicat həmişə savaşın ən qaynar nöqtələrində olurdu. Murovdağda döyüş yoldaşları ilə mühasirəyə də düşüblər. Dörd gün çəkən şiddətli vuruşmalardan sonra yüksəklikdən dərə yamacına tullanıb, yarğan boyunca döyüşərək mühasirəni yara biliblər. O, böyük qəhrəmalıqla, cəngavər kimi vuruşurdu.

Nicat snayperçi olub. Döyüş vaxtı onu ehtiyac olan hər yerə göndərirdilər və həmişə də sərrast atəşləri ilə düşmənlərini diz çökdürür, yerə sərirdi. Suqovuşan istiqamətində əməliyyat üzrə tapşırıqları yerinə yetirən bir neçə döyüş yoldaşı ilə qəhrəmancasına şəhid olur, əbədiyyətə qovuşur Nicat...

Şəhadətindən iki gün qabaq - oktyabrın 14-də qardaşı Rəşadla danışıb, sonra da anasına zəng vurub. Deyib ki, yaxşıyam, siz özünüzdən muğayat olun. Qismət olsa, görüşərik. Salamat qalın... Təəssüf ki, 16 oktyabr 2020-ci il tarixində bu ailə ocağının odu sönüb, tüstüsü göz acıdıb. Nicat Azad oğlunun əbədi baş qoyduğu torpaq kənddə atasının yanındadır.

Bir təsəlli də budur ki, dörd ay sonra - 17 fevral 2021-ci ildə şəhidimizin dünyaya gələn qardaşı oğlunun adını Nicat qoyublar ki, xatirəsi əbədiyaşar olsun.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sərəncamı ilə Nicat Azad oğlu Nağıyev ölümündən sonra “Vətən uğrunda”, “Suqovuşanın azad olunmasına görə” və “Cəsur döyüşçü” medalları ilə təltif olunub.